## Oruç Dadaşi Elman

### Allah'ım

Bizlər günahkâr bəndəyik, rəhmət sənindir Allah'ım
Hər bəndənin irşadına zəhmət sənindir Allah'ım

Yer titrəyib, göy kişnəyir tufan qopub sellər axır
Hər bir bəladən sonra da fürsət sənindir Allah'ım

İnsanda yoxdur heç dözüm, gəl keçmə bizdən imtahan
Yer-göy sənin hökmündədir, hişmət sənindir Allah'ım

Daşqın dənizlər seyrinin dağlar yazan gül şeyrisən
Hər yerdə səndən söz gedir, hikmət sənindir Allah'ım

Canlarda iman bəslənib, gözlərdə eşqin canlanır
Aləmlərin sultanısan şövkət sənindir Allah'ım

Səndən suvay kimdir pənah, canlar güvənsin arxayın
Cananısan hər kimsənin, qüdrət sənindir Allah'ım

Hər kim ki səndən ayrıdır, aldandı şeytan feylinə
Haqdan keçənlər ömrünə zülmət sənindir Allah'ım

Sən qıl kərəm, sən et nəzər yollarda həsrət qalmayaq
Hər gün müzəffər olmağa nüsrət sənindir Allah'ım

Gizlin günahlar yandırıb, aşkar cəhənnəm qurmuşuq
Rəhman-rəhimsən mehriban cənnət sənindir Allah'ım

Heç kim mənəmlik eyləyib çatmaz səadət feyzinə
Rəhm eyləyib ehsan qılan izzət sənindir Allah'ım

Bizdən təmənna gözlənir, səndən kəramət ey kərim
Canlar sənin ovcundadır, hörmət sənindir Allah'ım

Viran qalıb Xoy şəhrimiz, abad edər Türk elləri
Darüssəfadır ver səfa, rəyfət sənindir Allah'ım

Yardım sənindir qalmağa, qurtar bəldən bizləri
Qardaş müsəlman ölkəyə, himmət sənindir Allah'ım

*Elman* yazıq bir bəndədir, sen ver ləyaqət yazmağa
Gəl sevgi yağdır şeyrinə, neymət sənindir Allah'ım